# "Azərbaycanın SPECA-da aparıcı rola malik olması təsadüfi deyil"



Xəbər verildiyi kimi, Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr edilmiş Zirvə görüşü keçirilmişdir. Sammitdə iştirakçı ölkələrin dövlət və hökumət başçıları iştirak etmişlər.

Bu Zirvə görüşünün daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacağı şübhəsizdir. Həmçinin SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına da mühüm töhfələr verəcək. Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə mövzu ilə bağlı şərhində deyib ki, BMT-nin Xüsusi Proqramı olan SPECA Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatlarının inkişafı və layihələrin koordinasiyalı şəkildə həyata keçirilməsi üçün vacib platformadır: "Onu da qeyd etmək lazımdır ki, bu proqramda Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistanla yanaşı, Əfqanıstanın da iştirakı mühüm aspektlərdən biridir. Tədbirdə eyni zamanda Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi də fəxri qonaq qismində iştirak etmişlər".

Deputat vurğulayıb ki, Azərbaycanın SPECA-dakı rolu isə xüsusidir: "Çünki Çindən Avropaya gedən yollar Orta və Mərkəzi Asiya ilə bərabər, həm də əsas dəhliz kimi Azərbaycandan keçir. Bu mənada bizim balanslı siyasət həyata keçirməyimiz mühüm əhəmiyyət kəsb edir. Bu proqramda xüsusi rolumuzun olması Prezident İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət nəticəsində mümkün olub. BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşündəki çıxışlardan da aydın oldu ki, bu dövlətlərin Azərbaycana münasibəti dostyanadır, onlar Azərbaycanı siyasi dialoq ölkəsi kimi qəbul edir, iqtisadi islahatların aparıldığı və ciddi nəticə verdiyi bir dövlət kimi görürlər. Bu gün Azərbaycan həm də dünyada enerji təhlükəsizliyinə mühüm töhfə verən vacib dövlətlərdən biri hesab edilir. Ona görə də ölkəmizin SPECA-da aparıcı rola malik olması təsadüfi deyil", - deyə deputat qeyd edib.

Arzu Nağıyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verdiyini də bildirib. Əlavə edib ki, Prezident İlham Əliyev son iki il ərzində Mərkəzi Asiya dövlətlərinə 10-dan çox səfər edib.

Deputat həmçinin Bakının toplantıya evsahibliyi məsələsinə də toxunub. Deyib ki, SPECA-nın Zirvə görüşünə Azərbaycanın evsahibliyi etməsi baxımından da əlamətdar hesab edilməlidir. Müsahibin sözlərinə görə, bu, bir daha sübut edir ki, Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi mühüm məkana çevrilib.

Arzu Nağıyev yekunda Prezident İlham Əliyevin Zirvə toplantısındakı çıxışına diqqət çəkib, SPECA-nın inkişaf yolundan bəhs etdiyi məqamlara toxunub, çıxışdan sitat gətirib: "SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik. Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz". Doğrudan da, belədir. Prezidentin qeyd etdiyi kimi, bu gün dünyanın müxtəlif bölgələrində müharibələrin, münaqişələrin, qanlı toqquşmaların geniş vüsət aldığı bir vaxtda bizim ölkələrimizdə sülh, sabitlik və əmin-amanlığın hökm sürməsi, inkişafın, quruculuq proseslərinin uğurla getməsi dövlətlərimizin və xalqlarımızın böyük uğurudur.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 26 noyabr, № 258.- S.3.